bir xəyal qur...

Kitabın sahibi

Oxu tarixi

♡ ♡ ♡ ♡ ♡

Ürək ver

VƏLƏS AĞACININ QORXUSU

HƏSƏN ƏLİ TOPDAŞ

Türk dilindən tərcümə:

Azad Yaşar

Simurq

Baş redaktor:	Amin
Redaktor:	Günel ŞAMİLQIZI
Korrektor:	Flora ƏLİYEVA
İllüstrator:	Aynur ABDULLAYEVA
Tərtibatçı:	Zülfi XƏLİLOV
Cildin dizayneri:	Fariz EYVAZLI

Hasan Ali Toptaş
BEN BİR GÜRGEN DALIYIM

Həsən Əli Topdaş
VƏLƏS AĞACININ QORXUSU

Bakı, “Simurq” Nəşriyyatı – 2026, 136 səh.

© Hasan Ali Toptaş / 1997
© Parlaq İmzalar MMC / 2026
Kitab Hasan Ali Toptaş ilə *(Barbaros Altuğ vasitəsilə)* bağlanılmış müqavilə əsasında nəşr olunur. Kitabın Azərbaycan dilində nəşr hüququ “Parlaq İmzalar” Nəşriyyatına məxsusdur. Bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri qadağandır.

Simurq Nəşriyyatı | 23

SİMURQ – Parlaq İmzalar MMC-yə məxsus markadır.

Kitabın nəşri TEDA-nın dəstəyi ilə həyata keçirilmişdir.

www.parlaqimzalar.az
simurq@parlaqimzalar.az
facebook.com/simurqkitab
0559697259 / 0559897259

Mətbəə: “AVE PRİNT” MMC
OKTYABR / 2026

Həsən Əli Topdaş 1958-ci il oktyabrın 15-də Dənizli vilayətinin Çal rayonunda anadan olub. Orta təhsilini elə burada alıb. Hərbi xidmətdən qayıtdıqdan sonra bir müddət taksi fəaliyyəti ilə məşğul olub, daha sonra Çivril Vergi məntəqəsində beş il xəzinədar kimi işləyib. İlk kitabı 1987-ci ildə çap olunan "Bir Gülüşün Kimliği" adlı hekayə toplusudur. 1992-ci ildə çap olunmamış "Sonsuzluğa Nokta" romanı ilə Mədəniyyət Nazirliyinin təşkil etdiyi müsabiqədə fəxri fərmanla təltif olunub və sonradan həmin əsər nazirlik tərəfindən nəşr edilib. Yazıçı 1994-cü ildə "Gölgesizler" əsəri ilə Yunus Nadi roman mükafatına, 1999-cu ildə isə "Bin Hüzünlü Haz" romanı ilə Cevdet Kudret ədəbiyyat mükafatına layiq görülüb.

Azad Yaşar 1961-ci il aprelin 10-da Bakıda anadan olub. Orta təhsilini Şirvan şəhərində, ali təhsilini isə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda Memarlıq ixtisası üzrə alıb. Həm ölkəmizdə, həm də Rusiyada memar, dizayner və rəssam kimi çalışıb.
Bir çox dünya yazıçılarının ən müxtəlif janrlardakı əsərlərini dilimizə çevirib. "Məsnəvi"dən seçmələr" (Mövlana), "Missioner" (Ə. Həmdi Paşa), "Seçilmiş əsərləri" (Gi dö Mopassan), "Korlaşma" (E. Kanetti), "YaHU" (pritçalar antologiyası), "Bütün əsərləri" (M. Ş. Vazeh), "Müsyö İbrahim və "Quran" çiçəkləri" (E. E. Şmitt) adlı tərcümə kitabları nəşr olunub.

Mündəricat

1. Qorxu dağlara çökər 9
2. Yuxu 21
3. Müqavimət illəri 36
4. "Dönüb baxdım soluma" 45
5. "Həbsxanalarda günəş doğmur" 54
6. İki qonaq 67
7. Uzun incə bir yol 77
8. Həyətdə 87
9. İnsan faciəsi 94
10. "Yenə yol göründü qərib başıma" 104
11. "Mən nə bilim necə olacaq halım?" 115
12. "Qara gözlərini sevdiyim oğlan,
Oldu bizə olan, oldu bizə olan" 120
13. Xəcalət dağı 128

1

Qorxu dağlara çökər[1]

Egey torpağında çox gənc bir vələs idim mən.

Beşbarmaq dağlarının o üzündə, kiçik bir düzənlikdə qol-budaq atırdım.

Səhərdən axşama qədər başım üstündən quşlar uçar, şəkildən şəklə düşən rəngbərəng buludlar sıralanıb keçərdi.

Təbii ki, biri digərindən daha yaşıl, biri o birindən nəcib, bir-birindən gözəl qonşularım var idi. Yeri gəlmişkən, bir neçə ağac o yanda məndən on üç yaş böyük, qozbel bir ağ şam ağacı yaşayırdı. Ondan bir qədər aralıda orta yaşlarda bir vələs ağacı vardı. Bir az irəlidə isə qozaları durmadan böyüyüb çırtıldayan, tünd gövdəli

1. Türk atalar sözüdür. Mənası: qorxu hər yerdə öz varlığını hiss etdirər.





şamlar, boz-bulanıq rəngli ardıclar, küknar və şabalıd ağacları vardı.

Düzənliyin qurtaracağında isə hamımızdan böyük, ağsaqqal bir palıd ağacı yaşayırdı.

Özümü xatırlayandan bəri gövdəsini kol-kos xışıltıları bürümüş bu palıd bütün əzəməti ilə bir müdrikə qoyulan heykəl kimi ucalırdı.

Budaqlarının çoxusu qurumuşdu deyə artıq ona quşlar qonmurdu. Uça-uça yorulduqları, bir hovur dincəlmək istədikləri zaman dağınıq bir bulud şəklində civildəşərək gəlib mənim budaqlarıma qonardılar. Təpədən-dırnağa quş səsinə bürünər, bir neçə dəqiqəyə sanki bir civilti ağacına çevrilərdim. Civiltilər dimdik-dimdik, lələk-lələk, həvəslə, şırhaşırla çiyinlərimdən süzülüb, rəngarəng nəğməyə çevrilib torpağa tökülərdi.

Bu zaman özümü saxlaya bilməzdim, budaqlarıma qonan irili-xırdalı quşlara qoşulub mən də oxuyardım. Hətta ətrafımızdakı otlar, oradaburada gəzişən böcəklər, şəlpəqulaq dovşanlar, dovşanlarla birlikdə tülkülər, qurdlar və daşlar da bizə qoşulardılar.

Bir sözlə, meşədəki hər canlı səsindən səs qatardı bu nəğməyə.

Hər şey öz rəngi ilə qoşulardı bizə.

Hər şey öz duruşu ilə qoşulardı bizə.

Hətta uzaqlardakı qayalıqların səssizliyi də bənövşəyi bir ahənglə, get-gedə hər tərəfə yayılan bu nəğmənin içində üzməyə başlayardı. Elə buna görə də həmin an ürəkləri riqqətə gətirən nəhəng bir nəğməyə çevrilərdi dünya, hə, hə, başdan-ayağa nəğməyə dönər və heç şübhəsiz, daha şən-şaqraq fırlanardı.

Dünya bu cür – daha şən və daha gözəl fırlandıqca meşədəki hər şey dəyişərdi, sanki sehrli bir çubuqla toxunubsan. Məsələn, yaşıl rəngin çalarları bir az da şuxlaşardı, quşlar havada daha iti qanad çalardılar, ağacların boyları, böcəklərin qımıltıları, çiçəklərin isə ətirləri yavaş-yavaş aşıb-daşardı.

Yəqin, indi deyəcəksiniz ki, "bir çiçəyin ətri necə daşa bilər axı?" Daşardı da. Necə daşmasın? Elə məhz daşırdı. Qarşınızda görüb qoxuladığınız çiçəkdən daha fərqli, sirli bir çiçək görürsünüzsə, o məhz aşıb-daşır...

Hamılıqla cuşa gəlib nəğmə söyləyərkən biz yalnız bircə çiçək deyil, minlərlə, milyonlarla çiçək görürdük o düzənlikdə. Bitdikləri yerdə





nazlana-nazlana yellənən dağ sünbüllərinin, qızıl zanbaqların köksündə əks-səda doğurduğunu görürdük həm də; sonra lalələrin iş-gücünü atıb kəklikotularına, bu kəklikotularının zəfəranlara, onların da sağda-solda cırıldaşan bör-böcək səsləri ilə birlikdə lalələrə tərəf axdığını görürdük.

Bu səbəbdən hansı ətrin kimdən yayıldığını bir anlığa biləmməzdik.

Hətta nə qədər diqqət yetirsək də, hansı rəngin haradan fışqırdığını, nəyə aid olduğunu kəsdirə bilməzdik. Nar qırmızısı mavilər, qar bəyazı bənövşəyilər, solğun sarılar, sarımtıl yaşıllar düzənlikdə böyük bir coşqu ilə at oynadar, bizə isə eləcə durub bunlara tamaşa eləmək qalardı. Bir tərəfdən bulud-bulud uçuşan ətirlər, bir tərəfdən rənglər bizi sərməst edərdi, bir anlığa huşumuz başımızdan çıxardı.

Bəs həmişə belə şən idikmi?

Əlbəttə ki, yox...

Həyatda sevinc qədər iztirab da var.

Başqa sözlə, insanlar kimi, biz də iztirab çəkir, üzülür, bəzən isə özümüzü saxlaya bilməyib ağlayırdıq da. İnsanlar kimi, biz də hərdən tələşa qapılır, fikir çəkir və qorxurduq.

Yeri gəlmişkən deyim ki, mən ən çox düzənliyin o başındakı kolluqların arasında yaşayan ağsaqqal palıdın dediklərindən qorxuya düşürdüm. O, adətən bizlərə olmuş əhvalatlar danışırdı. Ona görə də ağsaqqal palıd hər dəfə öz budaqlarını sol tərəfindəki yamaca tərəf əyib içini çəkməyə başlayanda yarpaq-yarpaq ürpərirdim.

Palıd dediyim bu ağac, əslində, heç budaqlarını əyən kimi də danışmazdı: uzun müddət aşağıları diqqətlə süzər, qeyri-adi bir şey görmüş təki öz-özünə heyifsilənər, başını bulayar, ardınca da dərin bir köks ötürərdi.

O bu cür köks ötürəndə biz də marağımız güc gəldiyi üçün: "Ehey, dədə palıd, danış görək nələr görürsən orada?" – deyə tez soruşardıq ondan.

O isə bizi eşitmirmiş kimi yenidən köks ötürərdi.

Həmin an mavi gölləri xatırladan gözləri də yaşla dolardı.

Sonra da bəzən qəzəbli, bəzən kədərli, bəzən isə qəhərli bir səslə aşağılarda olub-keçənləri bizə birbəbir nağıl eləyərdi.

Onun dediyinə görə, ara-sıra cəllada oxşayan adamlar gəlirdilər aşağıdakı yamaca. Bu həriflə-



rin qapqara bığları, küləkdə uçuşan qarma-qarışıq saçları, papaqları və durmadan ora-bura yönələn bulanıq baxışları varmış. Sonra bu adamlar nazənin dağ çiçəklərini tapdaya-tapdaya, sərgərdan halda bir müddət o həndəvərdə gəzişirmişlər.

Gəzişdikləri vaxt dağ çiçəkləri ilə birgə böcəkləri, hətta otların arasından yayılan qoxuları, rəngləri də tapdalayırdılar.

Əzib keçdikləri bu qədər canlının fəryadlarını da duymurdular, təbii ki.

Deməli, ağsaqqal palıdın danışdığına görə, ətrafı qarış-qarış gəzən bu adamlar sonra da bir azca nəfəs dərmək üçün aşağılardakı çoban bulağının başına üz tuturdular. Atla gəliblərsə, atlarını, eşşəklə gəliblərsə, eşşəklərini ardıcların budaqlarına bağlayırdılar. Ətrafa dərin bir sükut çökürdü həmin an.

Göyə doğru yüksələn ardıclar, şamlar, şabalıdlar, vələslər, ağ şam hamısı birlikdə və elə qəfil susurdular ki...

Hətta daşlar da susurdu, çoban bulağı səssizləşirdi.

Ardınca isə get-gedə tükürpərdici bir qorxu bürüyürdü meşəni.

Budaqdan budağa, kölgədən kölgəyə “Növbə kimindir?” pıçıltıları dolaşırdı.

Səmadakı maviliyə baş vurub çıxan quşlar: “Növbə kimindir?” – deyə soruşurdular.

Çırtlayan toxumlar da xəbər alırdı: “Növbə kimindir?”

Bütün budaqlar – uclarına qədər titrəyirdi bu pıçıltıların mehi ilə. Bütün yarpaqlar, otlar, göbələklər, xəfif-xəfif ətrafa yayılan rayihələr yamyaşıl baxışları ilə tir-tir əsirdi həmin an.

Elə bu vaxt o cəlladüzlü adamlar yerlərindən sıçrayıb baltalarına sarılırdılar, meşədə getdikcə artan pıçıltıları tapdalaya-tapdalaya, onlara bircə dəfə belə qulaq vermədən ağacların üstünə şığıyırdılar.

Baltaların tiyələri günəş şüalarında bərq vurub sönürdü ara-sıra.

Sonra həmin adamlar o gözəl şamları, o yamyaşıl küknarları və o cavan vələsləri amansızcasına birbəbir kəsməyə başlayırdılar.

Düzənliyin o biri başındakı qoca palıd susub dururdu belə məqamlarda.

Danışmağına elə də ehtiyac yox idi, çünki kəsilən ağacların göylərə çıxan nalələrini biz dur-

duğumuz yerdən də eşidə bilirdik. Hətta bəzən buna dözməyib xısın-xısın ağladığımız vaxtlar da olurdu.

– Bir gün növbə bizə də çatacaq, – deyirdi ağsaqqal palıd.

Hətta bunu az qala hər gün təkrarlayırdı.

Biz isə bu sözlərini eşidəndə qorxudan tir-tir əsirdik.